


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

22 sentyabr 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 36 (3650)

# Tarixin dönüş qələbəsi

## Prezident İlham Əliyev: “Azərbaycan öz suverenliyini bərpa etmişdir”

**Azərbaycan Ordusunun Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirlərinin separatçıların təslim olması ilə nəticələnməsindən sonra sentyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib.**



**Xalqa suverenlik sorağı**

Prezidenti İlham Əliyev antiterror tədbirlərilə qarşıda duran bütün vəzifələrin cəmi bir gün ərzində yerinə yetirildiyini və Azərbaycan öz suverenliyini bərpa etdiyini bəyan edib.

Əməliyyat başlamazdan əvvəl bütün hərbi birləşmələrə Qarabağ bölgəsində yaşayan mülki əhalinin zərər çəkməməsi üçün ciddi tapşırıq verildiyini qeyd edən Ali Baş Komandan Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları ilə bu vəzifənin şərəflə yerinə yetirildiyini vurğulayıb. Əməliyyatın uğurlu gedişatının Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə saldığını bildirən Prezident bundan sonra ərazimizdə qanunsuz məskunlaşmış birləşmələrin tərk-silah olunmaları, ərazimizdən tamamilə çıxmaları, eyni zamanda, bütün silahları və texnikaları təhvil vermələri barədə rəsmi Bakının tələbinin yerinə yetirilməsinə razılaşdıqlarını bildirib.

Bu yaxınlarda Qarabağda keçirilən qanunsuz prezident “seçkilərinə” toxunan dövlət başçısı Qarabağın Azərbaycan ərazisi kimi bütün dünya, hətta Ermənistan tərəfindən tanındığını deyib. Dövlət başçısı status mövzusunun hələ İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldırıb, kapitulyasiya aktına imza atanda qapandığını xatırladıb.

**“İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır”**,- deyən Prezident Yevlax şəhərində Qarabağ icmasının nümayəndələri ilə keçirilən görüşdə birgə yaşayışla əlaqəli rəsmi Bakının mövqeyinin çatdırılacağını deyib.

Erməni sakinlərin bütün hüquqlarının - təhsil, mədəniyyət, din, munisipal seçki hüquqlarının təmin ediləcəyini bildirən dövlət başçısı Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yarandığını bəyan edib: **“O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq”.**

Prezident İlham Əliyev Ermənistanın bu dövr ərzində gözlənilmədən siyasi səriştə göstərdiyini və bunu qiymətləndirdiyini, bunun Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcəyinə inamını ifadə edib.

# Zəfər zəngi

## Prezidentlər fikir mübadiləsi aparıblar

Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıb, müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# Regionla bağlı müzakirə

## Görüş müsbət dəyərləndirilib

Sentyabrın 20-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı regiondakı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin terror aktları törətdiklərini, nəticədə polis əməkdaşlarının və mülki şəxslərin həlak olduğunu bildirib, buna cavab olaraq Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməli olduğunu qeyd edib.

# Onlar Yevlaxa gəldi

## Növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb.

Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb. Görüşdə Azərbaycan Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev sentyabrın 20-də Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin ləğvi və “Bakı şəhərində körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 11 may tarixli 635 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

- Prezident İlham Əliyev sentyabrın 18-də Xaçmaz rayonunun Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (20 km)–Hülövlü–Sərkərli–Alıcqışlaq–Qədmalıqışlaq–Rəhimoba avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Zəngəzur dəhlizi, sülh yolu

## Ölkəmizin bu təşəbbüsünün reallaşması zamanın tələbidir




Dünya iqtisadiyyatının inkişaf perspektivlərini, eləcə də ölkəmizin Asiya ilə Avropa arasında nəqliyyat qovşağı rolunu oynamasını nəzərə alan ekspertlər hesab edir ki, Zəngəzur dəhlizinin açılması zamanın tələbinə çevrilib.

Tarixi Azərbaycan ərazisi olan Zəngəzurdan keçəcək kommunikasiyalar bölgənin tranzit xəritəsinə mühüm yeniliklər vəd edir.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevrilməsi, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxışının təmin ediləcəyi proqnozlaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti olduğunu bəyan edib. Çünki dəhliz təkcə Azərbaycanın əsas hissəsi olan Naxçıvanı deyil, Türkiyə və Avropanı da nəqliyyat baxımından ölkəmizlə birləşdirməsi baxımından diqqət çəkir.

Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycana daxil olan yüklər Zəngəzur dəhlizi ilə Türkiyəyə, oradan Avropaya və əks-istiqamətə daşına bilər. Buna görə də Azərbaycanın adıçəkilən dəhliz üzərində suverenliyinin bərpası ölkə üçün böyük əhəmiyyət kəsb edir və Türkiyə bu mühüm məsələdə Bakını dəstəkləyir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışı zamanı bu məsələyə bir daha toxunaraq Ermənistanın dəhlizlə bağlı verdiyi vədləri yerinə yetirməsini gözlədiklərini bəyan etdi. Türkiyə Zəngəzur dəhlizinin dərhal açılmasının və hərtərəfli sülh sazişinin tezliklə həyata keçirilməsinin sülh prosesi üçün vacib hesab edir.

Zəngəzur nəqliyyat dəhlizinin açılması həm də böyük dövlətlərin marağındadır və türk dövlətləri üçün, onların iqtisadi inteqrasiyasından ötrü kifayət qədər strateji əhəmiyyət kəsb edir. Dəhliz türk dünyasının güclənməsində, türk dövlətlərin təşkilatlanmasında yaranan yeni şəraitdə onların dünya iqtisadiyyatında və dünya siyasətində daha önəmli rol oynamasına zəmin yaradacaq.

Vətən və vətəndaş uğrunda 2

Terror aktı ilə bağlı cinayət işi başlanılıb 2

Sabahın zabitləri 3

Örnək idmançı... 4

# Vətən və vətəndaş uğrunda

## Qəhrəmanlıqları ilə əbədi ömür qazananları heç vaxt unutmayacağıq

Sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən Xocavənddə yerləşdirilən minanın partladılması ilə törədilən terror aktı nəticəsində və yol qəzasında həlak olan polis əməkdaşları ilə vida mərasimləri keçirilib.

Mərasimlərdə dövlət və hökumət nümayəndələri, Daxili İşlər Nazirliyinin əməkdaşları, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İllər sonra ərazi bütövlüyümüzə yenidən təhlükə yaradan düşmən təxribatlarının qarşısının alınmasında da səngərsiz qəhrəmanlarımız tarixi uğurlara imza atdı, içdiyi anda sədaqətini, Vətənə, Xalqa sevgisini bir daha sübut etdi.

İnanırıq ki, tariximizə adları qızıl hərflərlə yazılan qəhrəmanlarımız heç vaxt unudulmayacaq, yaxın gələcəkdə düşməndən azad edilmiş doğma yurd yerlərimizdə onların adları əbədiləşdiriləcəkdir.

Rəhmətlə anır, ehtiramla yad edirik.



Seymur Mahmudov



Ələsgər Əsgərov



Asim Camalzadə



Rasim Məmmədov



Xəzər Zamanov



Ramil Şirinov



Seyfi Abdullayev

# Daxili İşlər Nazirləri Şurasının iclası keçirilib

## Əməkdaşlığa dair sənədlər imzalanıb

Qazaxıstanın Türküstan şəhərində MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib.

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib. İclasda birlik ölkələrinin Daxili İşlər Nazirliyi arasında əməkdaşlığın prioritet məsələlərinə baxılıb, birgə əməliyyat-profilaktik tədbirlərin və xüsusi əməliyyatların nəticələri müzakirə edilib.

Şura iclası transmilli cinayətkarlığa qarşı mübarizədə MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığa dair sənədlərin imzalanması ilə başa çatıb.

# Terror aktı ilə bağlı cinayət işi başlanılıb

## Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun Mətbuat xidmətlərinin birgə məlumatı

19 sentyabr 2023-cü il tarixdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 05.02.1994-cü il təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 08.07.1987-ci təvəllüdlü Şirinov Ramil Arif oğlu, 12.07.1991-ci il təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 21.07.1998-ci il təvəllüdlü Zamanov Xəzər Azər oğlu hadisə yerində həlak olmuşlar.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.10, 120.2.11, 120.2.12 (mütəşəkkil dəstə tərəfindən, ümumi təhlükəli üsulla, təkrar, zərər çəkmiş şəxsin xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar, milli ədavət və düşmənçilik niyyəti ilə iki və ya daha çox şəxsi terrorçuluqla əlaqədar öldürmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və digər maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə birgə istintaq-əməliyyat tədbirləri həyata keçirilir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

# RESPUBLİKA XƏBƏRLƏRİ

### İqtisadi məsələlər müzakirə olunub

İqtisadi Şuranın vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklərə həsr edilmiş iclası keçirilib. Nazirlər Kabinetindən bildirilib ki, sentyabrın 20-də keçirilən iclasda 2024-cü ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış vergi və gömrük sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi, onun nəticələrinə əsasən vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər, eləcə də Vergi Məcəlləsinə edilən dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması və digər məsələlər geniş müzakirə olunub. İclasda maliyyə naziri Samir Şərifovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib. İclasın yekununda təklif olunan dəyişikliklər barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

### Gələn ilin təhlükəsizlik xərcləri açıqlanıb

2024-cü ildə müdafiə və milli təhlükəsizlik üzrə xərclərin 6 milyard 421,0 milyon manat olması proqnozlaşdırılıb. Maliyyə Nazirliyindən bildirilib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən sonra ölkəmiz tərəfindən bölgədə ədalətli və davamlı sülhün bərqərar olunması və iki ölkə arasında münasibətlərin normallaşdırılması məqsədilə bir sıra siyasi-diplomatik xarakterli addımlar atılıb. Lakin Ermənistan hökumətinin sülh prosesinə qeyri-konstruktiv yanaşma sərgiləməsi, müşahidə olunan separatizm meyilləri və bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması ilə bağlı cəhdlərin nəticəsiz qalması arzuolunan sülh və sabitliyə qarşı təhdidlər yaradır. Bu baxımdan, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi və hərbi potensialın artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsində 3,0 milyard manat maliyyə təminatının yaradılması nəzərdə tutulur.

### Əhalinin gəlirləri artıb

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, cari ilin 8 ayında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,3 faiz artaraq 50 milyard 861 milyon manat və ya hər nəfərə orta hesabla 5 min manat olub. Əhalinin sərəncamında qalan gəlirlər isə 44 milyard 835 milyon manat təşkil edib.

# Onlar bizə əmanətdir

## Sevincləri sevincimiz, kədərləri kədərimizdir

Yeni dərs ilinin başlanması ilə əlaqədar polis əməkdaşları paytaxtda və bölgələrdə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan həmvətənlərimizin məktəbli övladlarını ziyarət ediblər.

Məktəbliləri təbrik edən polislər onlara məktəbli çantası və dərs ləvazimatları hədiyyə edib, təhsillərində uğurlar arzulayıblar.





Görüşlərin sonunda şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə DİN rəhbərliyinə təşəkkürlərini bildiriblər.

# Azad Qarabağdan Zəngəzura

## Əmin-amanlıq, sabitlik və xoşbəxt vətəndaşlar: Azərbaycanın hədəfi budur

**Bölgədə güclənmək həvəsində olanlar reallıqları görməzlikdən gəlməyə çalışsalar da istədiklərinə nail ola bilmədilər. Çünki "Qafqaz evi"nin sabitliyi Azərbaycanın çətiri altında mümkündür.**

*(Əvvəli ötən sayımızda)*

### Polis xidmətdədir

Laçın Polis Şöbəsinin əməkdaşları rayon ərazisində xidmət aparırlar. Onlar doğma yurda köçmüş sakinlərin, Laçında bu gün abadlıq-quruculuq işlərində çalışan 5000-ə yaxın vətəndaşın təhlükəsizliyini qoruyub, asayişin keşiyində dayanırlar. Ötən müddət ərzində Laçında heç bir cinayət hadisəsi baş verməyib. Bu gün Laçın həm də müasirliyi ilə göz oxşayır. Hazırda burada 247 ailənin, yeni 956 nəfərin daimi məskunlaşması təmin olunub. Bütün kommunikasiyalar müasir standartlara cavab verir. Yeni tikilən evlərə günəş panelləri quraşdırılıb.



### "Bakı Abadlıq Xidməti" Laçında

Laçın şəhəri "Bakı Abadlıq Xidməti" tərəfindən inşa olunur, abadlaşır və gözəlləşir. Tikinti, quruculuq işlərinə işçi qüvvəsi kimi yerli əhali cəlb olunub. Bu da işğaldan azad olunmuş regionlarda işsizliyin aradan qaldırılmasına verilən töhfədir. Yeri gəlmişkən, Laçına köçənlərin əksəriyyəti işlə təmin olunub.

Dağıdılmış, talan olan yurdlarımızın yenidən dirçəlməsi, əvvəlki görkəminə qayıtması vaxt, maliyyə və böyük zəhmət tələb etsə də, biz möhtərəm Prezidentimizlə, Ordumuzla, Polisimizlə, bir sözlə, xalq olaraq hər bir çətinliyin öhdəsindən gəlmişik... Qoy düşmən uzaqdan baxıb həsəd aparsın. Biz arzularımıza, hədəflərimizə yol çəkirik - Zəngəzur dəhlizi kimi...

### Laçına əlvida demirik

Vaxt bitir, vədə tamam olur. Paytaxta qayıtmalıyıq, çünki yolumuz uzaqdır. Bu yerləri, yaddaşımıza, gözümüzə, könlümüzə köçürüb qayıtmaq ümidi ilə ayrılırıq. Bir daha əmin oluruq ki, Laçın kimi bütün yurd yerlərimizin taleyi, əmin-amanlığı, asayişi etibarlı əllərdədir.

Laçından çıxanda isə üreyimdən bunlar keçdi. Kaş o gün gələ ki, doğma yurdlarına qayıdan laçınlılar, zəngilanlılar, kəlbəcərlilər, şuşalılar, bir sözlə, bütün keçmiş məcburi köçkün həmkarlarım bir gün də mənim doğulduğum torpaqlara səfər edələr, özü də Zəngəzur dəhlizi ilə.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Sabahın zabitləri

## Polis Akademiyasında təhsil məqsədə çevrilərsə...

**Azərbaycanda ictimai qaydanın, insan hüquq və azadlıqlarının nümunəvi qorunmasında, cinayətkarlıqla qətiyyətli mübarizədə peşəkar heyətin formalaşmasında DİN-in Polis Akademiyasının özünəməxsus yeri var.**



Bu ali təhsil müəssisəsinin bütün maddi-texniki gücü, pedaqoji heyətin bilik və bacarığı nəticə etibarı ilə vətəndaşın can və əmlak güvənliyinə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətkarlıqla, inzibati xətalarla mübarizənin metodoloji əsaslarının öyrədilməsinə yönəlib. Akademiya əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi və istintaq aparatı funksiyasının yerinə yetirilməsi kimi vəzifələrin icrasında "ön xətdə" mövqe tutmasa da, cinayətkarlıqla nəzəri-praktiki mübarizənin əsas institutudur.

### Qəbul obyektiv və şəffaflıqla aparılır

Yeni tədris ilinin başlaması ilə "Polis andı"nı qəbul edib Akademiyada təhsil almağa başlayan I kurs kursantları da sabahın qanun keşikçiləri kimi artıq polis peşəsinin sirrlərini öyrənməyə başlayıblar. Bu gün onların sıra meydanında atdıqları mətin addımlar qanunçuluğun və hüquq qaydasının gələcəkdə də qorunması estafetinə doğru aparır. Onların arasında ölkənin hər yerindən və cəmiyyətin hər təbəqəsindən gənclər var.

Valideyni dövlət işçisi, maddi rifah halı yüksək və ya aztəminatlı olmasından asılı olmayaraq bir amala, bir arzuya bəslədikləri inam onları Akademiyaya gətirib.

Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə təşviq edilməsi ilə əlaqədar keçirilən silsilə tədbirlər həm də o mənada diqqət çəkir ki, bu xüsusi təyinatlı ali təhsil müəssisəsinin qapıları biliyi, savadı olan hər kəsin üzünə açıqdır. Bu, I kurs kursantları Allahverən Fərzullazadə, Hüseyn Məmmədov, İzzət Abbasov, Ramazan Əliyev, İmdat Mazanov və Cahangir Mehdiyevin timsalında özünü daha aydın göstərir.

Hər iki valideynini itirdiyinə görə dövlətdən sosial yardım alan R.Əliyev Akademiyaya 534, atalarını itirən A.Fərzullazadə 446, İ.Mazanov 481 balla qəbul olub. Valideynləri fərdi əməklə məşğul olan H.Məmmədovun 491, İ.Abbasovun 598 və C.Mehdiyevin 625 bal toplamaqla kursant adını qazanması faktı həm də qəbulun obyektivliyini, şəffaflığını ifadə edir.

### Elmi potensial müasir tələblərə cavab verir

Kursantlar deyir ki, Akademiyanın cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təminində fəaliyyət göstərəcək kadrların yetişdirilməsi üçün bütün maddi-texniki təminata malik olduğunun ilk günlərdən şahidi olublar.

Dövlət qayğısı ilə əhatə olunan təhsil müəssisəsi müasir dövrün tədbid və çağırışlarına, həmçinin innovasiyaların inkişafına və tətbiqinə əsaslanan tədris proqramına malikdir. Akademiya kampusunda müasir yataqxanalar onların sosial və məişət şəraitini müasir tələblər səviyyəsində təmin edir.

Buradakı tədris modulu, kriminalistik şəhərcik, idman meydançaları, tədris korpusları və zəngin kitabxana peşəkar zabit kimi formalaşmalarına geniş imkanlar açır.

*Rəşad Mehtiyev*

# Həm minnətdarlıq, həm də təskinlik…

## Şəhid bacısı, şəhid ömür-gün yoldaşı bizə yazır

Avqustun 14-də Şuşaya gedənlərin içində mən də vardım. Bir qərinəyə sığmayan həsrətimi ağaran saçlarımda can qorxum, itirmək qorxum olmadan yenidən özümlə doğulduğum yurda götürürdüm. Sonuncu dəfə 1991-ci il noyabrın 15-də Cıdır düzündən Ağdam şəhərinə məni şəhid ömür-gün yoldaşım, polis serjantı Tahir Zeynalov, şəhid qardaşlarım polis leytenantı Natiq Şahmuradov və Namiq Şahmuradov helikopterlə yola salmışdılar. Onları bir daha görməyəcəyimi təsəvvür belə etmirdim…

1992-ci il mayın 8-də böyük qardaşım Natiq Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub, kiçik qardaşım Namiq itkin düşüb. Yoldaşım Tahir isə 6 ay sonra 1992-ci ilin noyabrın 9-da Ağdərə uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb…

Şuşada qardaşım Namiqin işlədiyi "Qarabağ" mehmanxanasının qarşısında dayananda elə bildim ki, gülə-gülə gəlib məni o qarşılayacaq. O gözləntini xəyal etməyi belə kimsəyə arzulamıram.

Özümdə təpər tapıb igid oğullarımıza min bir işgəncə verilən Şuşa türməsinə doğru addımladım. Natiqin qanı tökülən torpağı öpüb gözümün üstünə qoydum. Torpaq mənə toxtaqlıq verdi, sanki illərin təskinliyini tapdım.

O, şəhid olanda 29 yaşı vardı. Məzarı Bakıda Şəhidlər Xiyabanında olsa da avqustun 14-ü 60 yaşını Şuşada qeyd etdim. Şəhid bacısı, şəhid ömür-gün yoldaşı olmaq mənim alın yazım olsa da, bu gün xoşbəxtəm ki, doğulduğum yurdu əsgərimiz, polisimiz qoruyur, Vətənimiz bu igid oğullara əmanətdir.

Şuşadan Kərkicahanı durbinlə də olsa seyr etdim. Evimizi, həyətimizi gördüm. Bu dəfə ağlamadım, bu dəfə ürəyim yanmadı. Bilirəm ki, çox yaxın zamanda mən ora qayıdacağam.

*Təqaüddə olan polis polkovnik-leytenantı*
*Təranə Şahmuradova*

# Qətiyyət, peşəkarlıq və nəticə

## Narkotacirlərin sırası seyrəlir, çünki polis gecəli-gündüzlü xidmətdədir

Polis əməkdaşlarının Ağcabədi rayonunda son iki ay ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri tədbirlər zamanı 39 şübhəli şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitənin qanunsuz dövriyyəsində şübhəli bilinən Hindarx qəsəbə sakini, əvvəllər də eyni əmələ görə məhkum olunmuş Malik Allahverdiyev saxlanılıb. Onun Hindarx qəsəbə ərazisindəki yaşadığı ünvanda aparılan axtarış zamanı 3 kiloqramdan artıq narkotik vasitə olan marixuana aşkar edilərək götürülüb. Saxlanılan şəxs ilkin dindirilmə zamanı həmin narkotik vasitəni əldə etmək üçün bir müddət əvvəl özünəməxsus əkin sahəsində çətənə bitkisinin kultivasiyasını təşkil etdiyini bildirib. Onun bu əməlləri polis əməkdaşları tərəfindən ifşa olunub və barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

Bundan əlavə, Ağcabədi rayonunda son iki ay ərzində narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində keçirilən mütəmadi tədbirlər nəticəsində daha 38 şübhəli şəxs müəyyən edilib. Həmin şəxslərin hər biri barəsində cinayət işi başlanılaraq müvafiq qaydada baxılması üçün rayon məhkəməsinə göndərilib. Əməliyyatlar zamanı ümumilikdə 15 kiloqrama yaxın metamfetamin, heroin və marixuana kimi narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılması təmin olunub.

Bu istiqamətdə tədbirlər polis əməkdaşları tərəfindən qətiyyətlə davam etdirilir.

*Aslan Qiyaslı*
*polis kapitanı*

# Operativ, əlçatan…

## Qanuna hörmət, peşəkar xidmət, vətəndaşa diqqət güvəncin təməlidir

**Vətəndaşın polisə dəstəyi günün tələbidir. Çünki cəmiyyətin xilası uğrunda birgə mübarizənin aparılması bədbəxtliklər üzərində xoşbəxtlik qurmaq istəyənlərin ümidlərini puç edir.**

"Vətəndaşla polis anlaşanda sabitlik olur. Sovet dönəmində vətəndaşla polis arasında bir sədd vardı və tərəflər bir-birinə yaxınlaşmırdı. Bu sabitliyə, əmin-amanlığa, inama, etibara da təsirsiz ötüşmürdü. Bu gün polis əlçatandır. Sözünü deyə bilirsən, xırda bir problemin olanda belə həlli üçün bütün qapılar üzünə açılır. Biz sözlə, müasir yeniliklər də paytaxtla əyalət arasındakı məsafə problemini çoxdan aradan qaldırıb".

Həmsöhbət olduğumuz polis veteranları dövrün tələbini və tələbatını təhlil edərkən gəlinən nəticənin yuxarıda qeyd olunanlarla kifayətlənmədiyini qeyd etdilər. Dedilər ki, polisin vəzifə borcuna sadiqliyi, münasibəti və onun fövqündə dayanan humanist, insani dəyərlərə sayğısı məhz onu cəmiyyətdə söz sahibi kimi daha da rəğbətləndirir. Bütün bunlar isə cəmiyyət dəstəkli polis obrazına inamın haradan qaynaqlandığını gözlər önünə sərir.



Ölkəmizə gələn əcnəbilərin də polisin fəaliyyətini təqdir etməsi vətəndaşlarda və insani dəyərlər üzərində qurulmasının inikasıdır. Hətta sosial şəbəkələrdə əcnəbilərin Azərbaycan Polisi haqqında fikirləri öz ölkələrində marağa səbəb olur ki, bu da ölkəmizin tanıtımına töhfə verir.

### Xalq üçün, xalqın rahatlığı üçün xalqla birlikdə

XXI əsrin təhdidləri və çağırışları bu deyimin aktuallığını daha da artırıb. Narkotiklərin dövriyyəsi sərhədləri aşsa da hər gün bu bəla ilə mübarizədə ciddi uğurların qazanılması zəif iradə ovuna çıxanları daha da azğınlaşdırır. Şübhəsiz ki, onların hədəf aldığı, əsl peşəkar manеə kimi gördükləri güc polisdir. Ölkəmizdə ötən iki ay ərzində "qara bazarda" qiyməti 32 milyon manatdan çox olan narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması onları daha fərqli yollar aramağa vadar edir. Ancaq…polis ayıqdır, gərəkdir ki, vətəndaşlar da sayıqlığını itirməsinlər.

### Vətəndaş dəstəyi…

Bütün neqativlərlə mübarizədə vətəndaş dəstəyi müsbət nəticələri ortaya qoyur. Narkotiklərlə mübarizəyə, ictimai rezonans doğuran cinayətlərə və ekoloji tarazlığın pozulmasına yol açan faktlara münasibətdə gərəkdir ki, hər kəsin vicdanı onun öz polisi olsun. O zaman polisin vətəndaşları qorumaq üçün hansı fədakarlıqlara imza atmasını, onun ölüm-dirim mübarizəsinin fəlsəfəsini hər kəs daha aydın şəkildə görə bilər.

Cəmiyyətin inkişafını, övladının gələcəyini uğurlu, zərərli vərdişlərdən uzaq görmək istəyən hər kəs polisin ağır yükünün altına çiyinlərini verməklə həm asayişin qorunmasını asanlaşdırır, həm də öz vətəndaş borcunu yerinə yetirmiş olur.

*T.Hafiz*

# Maarifləndirmək də mübarizədir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 1 nömrəli Uşaq Reablitasiya Mərkəzində "Narkomaniyaya yox deyək!" mövzusunda profilaktik-maarifləndirici tədbir keçirilib. Narkomaniyanın fəsadları barədə müəssisədə reabilitasiya kursu keçən uşaqları, onların valideynlərini və işçi heyəti məlumatlandırmaq məqsədilə keçirilən tədbirdə Bakı şəhər BPİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova və Nərimanov RPİ 17-ci Polis Şöbəsinin ispektoru, polis leytenantı Könül Yusifova iştirak edib.

Polis əməkdaşları narkomaniyanın səbəb olduğu ağır fəsadlar barədə ətraflı məlumat verib, ölkəmizdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizədən söz açıblar.

Sonda uşaqların suallarını cavablandırılıb.

# Əməliyyat tədbirləri davam etdirilir

## Narkotik vasitələri qazanc mənbəyinə çevirənlər peşəkar mübarizənin hədəfidir

Salyan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində uğurlu əməliyyat tədbiri keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şirvan regional qrupundan verilən məlumata görə, RPŞ-nin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində qeyd edilən cinayət əməli ilə məşğul olmaqda şübhəli bilinən rayon sakini Malik Hüseynov saxlanılıb.

Onun yaşadığı ünvana keçirilən baxış zamanı evindən 10 kiloqramdan artıq marixuana və 60 qrama yaxın tiryək, həyətyanı sahəsindən isə xüsusi aqrotexniki qaydada qulluq edilərək yetişdirilən 14 ədəd çətənə kolu aşkar edilərək götürülüb.

*Nizam Həmidov*
*polis kapitanı*

# Ətraf mühitin mühafizəsi diqqət mərkəzindədir

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin, Xaçmaz Rayon Polis Şöbəsinin Xudat Polis Bölməsinin digər müvafiq qurumlarla birlikdə sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə keçirdikləri birgə tədbirlər zamanı rayonun müxtəlif ərazilərində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkarlanıb.

İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinin tələblərini pozduqlarına görə 4 bələdiyyə sədri, eləcə də 1 obyekt sahibi barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

*Xəyal Talıblı*
*polis baş leytenantı*

# Örnək idmançı...

## O, Avropanın ən yaxşı rinq məşqçisi seçilib

İdmanda maraqlı bir "adət" var. İdmançı qalib gələndə çempion olur, məğlub olanda isə gözlər məşqçiyə zillənir, ondan hesab sorulur. Bunun doğru və ya yanlış olduğunu mübahisələndirmək fikrim yoxdur. Sadəcə olaraq, əgər məğlubiyyətin məsuliyyətini ilk növbədə məşqçi daşıyırsa, deməli, qalibiyyətin də idmançıdan əvvəl məşqçinin adına yazılması haqsızlıq olmazdı.

**Uğurun memarı**

DİN-in Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev də çiyinlərində belə ağır məşqçi məsuliyyəti daşıyır. 2010-cu ildən baş məşqçisi olduğu Kikboksinq üzrə Gənclər və Yeniyetmələr üzrə Milli Yığma Komandanın dəfələrlə həm yerli, həm də beynəlxalq çempionatlardan qalib ayrılması ilə həmkarımızın adı Azərbaycanın idman tarixinə yazılıb. Bu yaxınlarda İstanbulda keçirilən yeniyetmə və gənclər arasında kikboks üzrə WAKO Avropa birinciliyində 16 qızıl, 16 gümüş, 31 bürünc medalın qazanılması da baş məşqçi olaraq məhz onun triumfu idi.

DİN-in İdman Cəmiyyətində gənc idmançıları peşəkar rinqlərə, polisləri cinayətkarlarla əlbəyaxa döyüş, fiziki müdaxilə anına hazırlayanlardan biri kimi Hikmət Hacıyev idmançı həmkarlarımız üçün örnək ömür



yolu keçməkdədir. Onun parlaq məşqçi karyerası hərbi xidmətdə olarkən DİN Daxili Qoşunlarının hərbiçiləri arasında keçirilən əlbəyaxa döyüş, silahsız özünü müdafiə yarışlarında fəxri kürsülərə yüksəlməklə başlayıb. Sonralar kikboksinq üzrə veteranlar arasında Avropa 3-sü və Dünya Kuboku 3-sü olub. Əməkdar idman ustası, Əməkdar məşqçi fəxri adlarını almasının, dəfələrlə "İlin məşqçisi", nəhayət, İstanbulda ən yaxşı rinq məşqçisi - "Best coach" seçilməsinin təməli elə daxili işlər orqanlarında qoyulub.

Müsahibimiz olan H.Hacıyev deyir ki, İstanbulda Azərbaycan kikboksinq idman növünün 30 ili ərzində ən böyük uğura imza atılıb. Bunun bir səbəbi də odur ki, yarışda İdman Cəmiyyətini təmsil edən 23 idmançıdan 17-



si Vətənə qızıl, gümüş və bürünc medalla dönüb. İstanbulu "fəth edən" bu idmançılarımızın içində polis əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının övladları da var: "Hər dəfə himnimiz səslənəndə komanda olaraq bayrağımıza hərbi təzim edirik. Gənc idmançılarımız hərbi salam vəziyyətində dururlar. Onların əksəriyyətinin atası, anası, bacısı, qardaşı ya hərbçi, ya da polisdir..."

**Polislərin fiziki hazırlığı yüksək səviyyədədir**

Polislərin fiziki hazırlığına DİN və İdman Cəmiyyətinin rəhbərliyi tərəfindən xüsusi diqqət ayrıldığını, bunun da idman zallarına könüllü gələn əməkdaşların sayına ciddi təsir göstərdiyini deyən müsahibimiz qeyd edir ki, asayiş keşikçilərinin fiziki hazırlığı, çevikliyi yerindədir, yüksəkdir. Bütün idarə, şöbə və bölmələrdə yaradılan şərait cinayətkarlıqla mübarizədə polislərin fiziki imkanlarını artırmağa kömək edir. Onun sözlərinə görə, xidmət etdiyi DİN Baş Mühafizə İdarəsinin əməkdaşlarını əlbəyaxa döyüş, silahsız özünümüdafiə bacarıqlarını artırmaq üçün məşğələlər də aralıqsız davam etdirilir. Həftə ərzində İdman Cəmiyyətində keçirilən məşğələlərə və imtahanların götürülməsinə isə Cəmiyyətin rəisi, polis polkovnik-leytenantı Mövlud Mirəliyev şəxsən nəzarət edir.

Müsahibimiz onu da diqqətimizə çatdırır ki, İdman Cəmiyyətinin Kikboksinq bölməsini və bir baş məşqçi olaraq onu qarşıda yeni bir sınaq gözləyir. Yetirmələrini 22-24 sentyabr tarixlərində Bakı İdman Sarayında keçiriləcək kikboksinq üzrə respublika çempionatına hazırlayan H.Hacıyevin komandası yarışlara yenə də bütün klublardan çox idmançı çıxaracaq. Hədəf isə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinə 26-cı Respublika Kubokunu gətirməkdir. Öz sözləri ilə desək: "Üzərinə qalib gələnin də, gəlməyənin də alın təri, komanda ruhu hopacaq Kuboku..."

*Rəşad Mehtiyev*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Müəmmalı qadının sirri

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

Ah, xalacan – onun boynuna sarılaraq dedim – siz mənim həyatımı xilas edirsiniz – siz çox xeyirxahsınız.

Mən ona oğlu ilə on səkkiz gün əvvəl görüşdüyümü dedim, onu maraqlandıran dustaqlar barədə məlumatlar verdim. Mən məlumat verdiyim təfərrüatlar o qədər həqiqətə bənzəyirdi ki, yalan danışmağım ağlına belə gəlmədi.

Siz yəqin mənim haqqımda çox eşitmisiniz – mən davam etdim – çox əziyyət çəkmişəm. Mənim adım, yəqin ki, sizə tanışdır.

Necə tanış olmaya bilər – o, dedi – doğmam kimi tanıyıram. Allahım! Oğlum və dostları, sizin başınıza gələn bədbəxt hadisələr barədə mənə danışıblar. Allahım! Siz hansı vəziyyətdəsiniz. Bundan belə bu vəziyyətdə qala bilməzsiniz. Sizi deyəsən pis həşəratlar narahat edir, icazə verin sizə təmiz alt paltarı verim, yaxşı geyindirim.

Mən Xanım Noelə necə bacarıdımsa təşəkkür etdim, söz arası soruşdum ki, Viktor Debua və yoldaşı Monjene indi haradadırlar.

- Debua və Baraban! Əzizim yaxşı olar ki, onlar haqqında danışmayasınız – bu alçaq Vidok onların kürkünə duz səpib. Jozef (Jozef Lonvi – keçmiş polis məmuru) küçədə görəndə deyib ki, bu kvartalda polis onları axtarır. Bundan sonra buralarda gözə dəymirlər.

- Necə? Bəlkə Parisdə deyillər? – deyə soruşdum.

- Yox narahat olmayın. Uzaqda deyillər. Hərdən onları görürəm, ümid edirəm ki, tezliklə mənə bir-iki saatlığa baş çəkəcəklər. Sizi görəndə necə sevinəcəklər...

-Yəqin ki, məndən çox sevinməyəcəklər. Xəbər verə bilsəniz ki, buradayam, mənimlə görüşməyə tələsərlər.

-Bilsəydim ki, hardadırlar, özüm də onları gətirməyə tənbəllik eləməzdim. İş orasındadır ki, bilmirəm, harada yaşayırlar, siz gərək səbrli olasınız və gözləyəsiniz.

Yeni gələn adam kimi xanım Noelin bütün diqqəti mənə yönəlmişdi.

-Sizi Vidok və onun iki xəfiyyəsi – Levek və Komper tanıyırmı? – o, soruşdu.

Bilirsiniz, təəssüf ki, məni iki dəfə həbs ediblər.

-Onda özünüzü gözləyin, Vidok çox məharətlə başqa adam kimi geyinir, sizin kimi bədbəxtləri tələyə salmaq üçün maskalanır.

Biz iki saat danışdıqdan sonra, nəhayət məni hamam otağına dəvət etdi. Razılaşdım, üstümü dəyişən zaman az qala huşunu itirəcəkdi.

Sizə necə yazığım gəlir! – o, ana nəvazişi və həyəcanı ilə dedi. Dizi üstə çökərək ayaqlarımı yoxlamağa başladı, hər qabarın üzərinə məlhəmli sarğı qoydu. Bu qayğı və qonaqpərvərlikdə nəsə bir idealizm vardı, daha yaxşı effekt üçün mənim məşhur səyyah, onun isə xeyirxah naməlum qadın olması çatmırdı. Sarğını bitirdikdən sonra, təmiz alt paltarı, ülgüc verdi və dedi ki, saqqalımı qırxmağı yaddan çıxarmayım.

Sonra sizə Tampldan işçi paltarı almaq lazımdır – dedi – Tampl sizin kimi bədbəxtlərin sığınacağıdır. Hərdən oradan lap təzə paltar almaq olur.

Yuyunandan sonra xanım Noel mənə yataq otağını göstərdi. Bu otaq saxta açarların düzəldilməsi üçün emalatxana kimi istifadə edilirdi. Otağın qapısı asılqandan asılan pərdəylə maskalanmışdı.

Bax budur, sizin yoldaşınızın yatdığı yataqdır – o, dedi. Rahat yatın, sizi polis burada heç cür tapa bilməz.

Buna əminəm, icazə verin gedim yatım – dedim.

O, məni tək buraxdı. Onunla danışanda gərək ehtiyatı əldən verməyəydim, katorqaçılara xas o vərdiş, adət, hərəkət yoxuydu ki, beş barmağı kimi bilməsin. Nəinki, bütün gördüyü oğruları yadda saxlamışdı, onların həyatının və məişətinin təfərrüatlarını da bilirdi. Onlardan ən məşhuru, qeyri-adi dərəcədə sevdiyi, ilahiləşdirdiyi oğlu haqqında həkayəni böyük həvəslə danışırdı.

- Oğlunuzu görməkdən çox şad olardınız? – mən soruşdum.

- Çox sevinərdim.

- Onda sizə deyim ki, tezliklə belə bir xoşbəxtlik nəsib olacaq. Noel artıq qaçış üçün hazırlaşıb və uyğun zamanı gözləyir.

Xanım Noel oğlunu yaxın vaxtlarda qucaqlayacağı ümidlə xoşbəxt idi. O, sevinc göz yaşları axıdırdı. Etiraf edim ki, mən də bu təsirə düşmüşdüm, kövrəlmişdim, düşünürdüm ki, bu dəfə xəfiyyə olduğumu unuda bilərəm.

*(Ardı var)*

# Qatili necə tapmalı?

## Əməliyyatçıların işinə yarayan araşdırma

Məşhur yazar Aqata Kristinin dedektiv əsərləri ilə bağlı daha bir sirr ortaya çıxıb. Belə ki, Şimali İrlandiyanın Kuins Universiteti və İngiltərənin "Exeter" Universitetinin professorları Aqata Kristinin əsərlərindəki qatili kitabı sona qədər oxumadan tapmağın mümkün olduğunu aşkarlayıblar. Onlar bunun üçün yazarın "Mesopotamiyada cinayət", "Şərq ekspresində qətl" və "Əyri ev" adlı əsərləri başda olmaqla 30 romanını araşdırıblar. Nəticədə aşağıdakı riyazi formul yaradılıb: k r, ?, ?, c=f{rk +?+?P,M, c(3?4.5}

Professorlar bildiriblər ki, bu formulla qatili Aqata Kristinin yaratdığı məşhur dedektiv obrazı Herkül Puarodan öncə tapmaq olar. Formuldakı "k" hərfi qatili təmsil edir. Araşdırmaçılar Kristinin romanlarında qatilin daima qurbanla yaxın əlaqələrinin olduğunu nəzərə almağı tövsiyə edirlər. Çünki qatil adətən, əsas obrazın həyat yoldaşı və ya yaxın qohumu olur. "?" işarəsi isə romanda istifadə edilən nəqliyyat vasitələrini təmsil edir.

Qəribədir ki, Aqata Kristi yaratdığı obrazları bir yerdən başqa yerə aparırkən təyyarə və ya gəmidən istifadə edirsə, həmin romanda qatil kişi cinsinin nümayəndəsi olur. Yox, avtomobildən istifadə edilibsə, onda qatil qadın çıxır.

Riyazi formuldakı "s" hərfi isə məkanlara işarə edir. Əgər hekayə kiçik qəsəbədə cərəyan edirsə, deməli qatil qadındır. Yox, böyük şəhərdə baş verən hadisələr təsvir edilibsə, qatilin kişi olmasından şübhələnmək lazımdır.

Professorlar qeyd ediblər ki, Aqata Kristi qatili oxucu ilə kitabın ilk 20-30-cu səhifələrində tanış edir. Yazarın yaratdığı qatil obrazı qadındırsa, qurbanlarını zəhərləyərək öldürür. Kişi qatillər isə bıçaq və silah kimi vasitələrdən istifadə edir. Qadın qatillər fərqində olmadan kiçik bir səhv etdikləri üçün yaxalanırlar, kişi qatillər isə uzun araşdırmalardan sonra Herkül Puaro və Miss Marpl kimi dedektivlər yaxalaya bilirlər.

# Dünya çempionatı keçirilib

## Ağırlıq qaldıran polis bürünc medal qazanıb



Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ağır atletika üzrə kişilər və qadınlar arasında lisenziya xarakterli dünya çempionatı keçirilib.

Çempionatda Əlahiddə Çevik Polis Alayının taqım komandiri, polis baş leytenantı Dadaş Dadaşbəyli uğurlu nəticə göstərib. (109 kiloqram) D.Dadaşbəyli birdən qaldırma hərəkətində 180,



təkanla qaldırmada isə 223 kiloqramı başı üzərinə qaldırıb. İdmançımız hər iki hərəkətin nəticəsi olaraq bürünc medal qazanıb.

Toplam 403 kiloqram (180+223) nəticə göstərən Dadaşbəyli dünya çempionatının 3-sü olub.

Qeyd edək ki, Azərbaycan ağır atletika üzrə dünya çempionatlarında medalı sonuncu dəfə 8 il əvvəl qazanmışdı.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Müdriklərin söz xəzinəsi

Kainatın ruhu həqiqətdir.
**İbn Sina**

Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər.
**Konfutsi**

Ağıl təkcə bilikdə deyil, həm də bilikləri təcrübədə tətbiq etmək bacarığından ibarətdir.
**Aristotel**

Qanunun mahiyyəti insansevərlikdir.
**Vilyam Şekspir**

Hər yaxşının içində bir pis, hər pisin içində bir yaxşı var.
**Viktor Hüqo**

Vicdan-insanların həyatının doğru yol göstəricisidir.
**Lev Tolstoy**

Ləyaqət və şərəf insanlığın düsturudur.
**M.Qandi**

Sənin qəbahətlərini üzünə deyən düşmən, bunları gizlədən dostdan yaxşıdır.
**Sokrat**

POLIS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik